# HEYDƏR ƏLİYEV FONDU

2004 - 2005

241559

HEYDƏR ƏLİYEV FONDU

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası



*İyirminci yüzillikdə Azərbaycan xalqının yetirdiyi ən görkəmli şəxsiyyət, dünya miqyaslı müdrik dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin adını daşıyan Fondun açılışından bir il keçir.*

*Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadi inkişafının təmin olunması, milli mədəniyyətin qorunub inkişaf etdirilməsi, vətəndaş cəmiyyətinin yaradılması, ölkəmizin dünya birliyində öz layiqli yerini tutması yolunda ümummilli liderimizin öz dərin zəkası ilə hazırladığı və özünəməxsus enerji ilə həyata keçirdiyi siyasi kursun müstəqil dövlətimizin yaşayıb inkişaf etməsi üçün yeganə düzgün kurs olduğu bu gün hamı tərəfindən etiraf olunur. Alternativi olmayan bu siyasi kursun davam etdirilməsi Azərbaycanın bugünkü və gələcək inkişafının rəhnidir.*

*İnamla demək olar ki, Heydər Əliyev siyasi kursu bu gün uğurla davam etdirilir. Eyni zamanda etiraf etməliyik ki, Heydər Əliyev şəxsiyyəti elə nəhəng, onun fəaliyyət dairəsi elə geniş və çoxşaxəli idi ki, Azərbaycanda heç bir dövlət qurumu onun həyata keçirdiyi işləri tam əhatə etmək qüdrətində deyildir.*

*Heydər Əliyev siyasi kursunun davam etdirilməsi hamının - hər bir dövlət xadimi, dövlət qurumu, ictimai və qeyri-hökumət təşkilatının, hər bir vətəndaşın bu mühüm işin həyata keçirilməsində iştirakını zəruri edir. Heydər Əliyev Fondunun əsas məqsədlərindən biri də məhz ulu öndərin bir çox sahələrdə, xüsusilə sosial və mədəni sahələrdə gerçəkləşdirdiyi işlərin davam etdirilməsinə öz töhfəsini verməkdir. Fond birillik fəaliyyəti dövründə bu istiqamətdə bir çox işlər həyata keçirmişdir ki, təqdim olunan kitabda bu barədə məlumat əldə edə bilərsiniz.*

*Heydər Əliyev irsinin öyrənilməsi, onun ideyalarının geniş təbliğ olunaraq gündəlik həyatımızda tətbiq olunması və gələcək nəsillərə çatdırılması üçün hərtərəfli araşdırmalar aparılması qarşıda duran vacib vəzifələrdən biridir. Fond bu vəzifənin yerinə yetirilməsi istiqamətində işlər aparır və gələcəkdə də aparacaq, bütün həyatını Azərbaycanın inkişafı işinə həsr etmiş bu dahi şəxsiyyətin zəngin məktəbindən daha məqsədyönlü şəkildə faydalanmaq üçün müxtəlif layihələrin gerçəkləşdirilməsi yolunda aparılan işlər öz payını verəcəkdir.*

*Təqdim olunan kitabda xarici ölkələrin Heydər Əliyev Fondunda olmuş dövlət xadimlərinin, görkəmli şəxsiyyətlərinin qeyd etdikləri təəssürat və rəyləri də yer almışdır. Həmin rəylərdə Heydər Əliyev şəxsiyyətinə və onun fəaliyyətinə verilən yüksək qiymət hər bir azərbaycanlının qəlbini böyük qürur və iftixar hissi ilə doldurur.*

*Heydər Əliyev Fondu ictimai təşkilatdır. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, o, qarşısına qoyduğu məqsəd və vəzifələrin əhəmiyyətinə və miqyasına görə ölkəmizdə analoqu olmayan yeni tipli bir qurumdur. İnanıram ki, Fond geniş ictimaiyyətlə əlaqələrini möhkəmləndirməklə Heydər Əliyev ideyalarının həyata keçirilməsinə yardımçı olmaq məqsədini daşıyan fəaliyyətini daha da təkmilləşdirəcək və Azərbaycanın hərtərəfli inkişafı, ölkəmizdə vətəndaş cəmiyyətinin bərqərar edilməsi işinə öz töhfəsini verəcəkdir.*

*Xalqımızın dahi oğlunun adını daşıyan Fondun fəaliyyətə başlamasının bir illiyinə həsr olunmuş bu kitabda qarşıya qoyduğumuz məqsəd və vəzifələrdən, indiyədək görülmüş işlərdən yığcam şəkildə bəhs edilir. Əminəm ki, gələcək illərdə Fondun fəaliyyəti geniş vüsət alacaq və biz oxuculara məlumatlarla zəngin olan yeni-yeni nəşrlər təqdim edəcəyik.*

*Azərbaycan xalqının böyük xilaskarı Heydər Əliyevin işıqlı xatirəsini bir daha sonsuz ehtiram hissi ilə anaraq Tanrıdan ona rəhmət diləyir, müqəddəs ruhu qarşısında baş əyir, onun ideyalarının həyata keçirilməsi kimi şərəfli işdə hamını bizimlə əməkdaşlığa dəvət edirəm.*

***Mehriban Əliyeva***
*Heydər Əliyev Fondunun prezidenti,*
*YUNESKO-nun xoşməramlı səfiri*

*Vətənə, xalqa*
*həsr edilən ömür*



HEYDƏR ƏLİRZA oğlu ƏLİYEV 1923-cü il mayın 10-da Azərbaycanın qədim Naxçıvan şəhərində anadan olmuşdur. Atası dəmiryolçu, anası İzzət xanım evdar qadın idi.

Heydər Əliyev Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra 1939-1941-ci illərdə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. 1941-ci ildən Naxçıvan Muxtar Respublikası Xalq Daxili İşlər Komissarlığında və Xalq Komissarları Sovetində şöbə müdiri işləmişdir. 1944-cü ilin mayında Naxçıvan Vilayət Partiya Komitəsi tərəfindən dövlət təhlükəsizliyi orqanlarına işə göndərilmiş, Leninqradda (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almışdır. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsini bitirmişdir.



1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri təyin edilmişdir.

1969-cu ilin iyulunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmiş, respublikanın rəhbəri olmuşdur.

1976-cı ilin martında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmiş və sovet dövlətinin aparıcı rəhbərlərindən biri olmuşdur. O, 20 il ərzində SSRİ Ali Sovetinin deputatı, 5 il isə Ali Sovet sədrinin müavini olmuşdur.

Heydər Əliyev Moskvada işlədiyi vaxtlarda da həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın yalnız keçmiş SSRİ məkanında deyil, həm də dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sov.İKP MK Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi səhv siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyində siyasi bəyanatla çıxış edərək, xalqına qarşı törədilmiş cinayətlərin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. Onun bu bəyanatı təkcə Azərbaycanda deyil, həm də bütün Sovet İttifaqı məkanında yeni siyasi eranın başlanğıcı oldu.

Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, Heydər Əliyev 1991-ci ilin iyulunda Sov.İKP sıralarını tərk etmişdir. O, bununla əlaqədar SSRİ Nazirlər Sovetinin partiya təşkilatına ünvanlanmış ərizəsini bu sözlərlə tamamlamışdı: "Xalqa açıq və düzünü demək lazımdır ki, ölkəmizdə kommunist eksperimenti və sosializm yolu özünü doğrultmadı, zorakılıqla yaradılmış və saxlanılan respublikalar İttifaqı dağılmaqdadır.

Bu bəyanatdan sonra qarşıma çıxa biləcək çətinlikləri təsəvvür edirəm, hər cür hücumları və mənəvi zərbələri qabaqcadan görürəm".

Heydər Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.





1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur.

1993-cü ilin may-iyun aylarında hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda, Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri onu rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyunun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əlirza oğlu Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. O, oktyabrın 10-da andiçmə mərasimindəki nitqində demişdi: "Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəm".

Heydər Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçən seçkilərdə səslərin 76,1 faizini toplayaraq yenidən Azərbaycan Prezidenti seçilmişdir. O, 2003-cü il oktyabrın 15-nə təyin olunmuş prezident seçkilərində də namizədliyinin irəli sürülməsinə razılıq vermiş, lakin səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak edə bilməmişdir. Heydər Əliyev 2003-cü il dekabrın 12-də, müalicə olunduğu Klivlend klinikasında (ABŞ) vəfat etmiş, dekabrın 15-də Bakıda Fəxri xiyabanda dəfn olunmuşdur.

Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu adlara layiq görülmüşdür. O, dörd dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adı almışdır. Bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur.

Azərbaycanın 1960-cı illərin sonundan başlanan və XXI əsrə adlayan tarixinin otuz dörd illik bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. O, Vətəndaş, Şəxsiyyət, Lider kimi bütün bu illərdə Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət və xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarmış, müasir Azərbaycan adlandırdığımız müstəqil məmləkəti, onun bugünkü həqiqətlərini, işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır. Bu illər ərzində Azərbaycan xalqının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun adı ilə əlaqədardır.

Heydər Əliyevin bütün şüurlu həyatını həsr etdiyi, övlad məhəbbəti ilə sevdiyi Vətəni və xalqı qarşısındakı xidmətləri haqqında indiyədək az yazılmamışdır. Lakin bunları hələlik ilk təşəbbüslər kimi səciyyələndirmək olar, çünki Heydər Əliyev şəxsiyyətini, fenomenini, onun gördüyü misilsiz işləri hərtərəfli, bütün dolğunluğu ilə







təqdim etmək üçün uzun illər çoxsaylı və çoxşaxəli araşdırmalar aparılmalıdır. Ona görə də bu yazıda oxuculara Böyük Azərbaycanlı Heydər Əliyevin bugünkü və gələcək nəsillərə örnək olan əfsanəvi həyatının son qərinəsi ərzindəki nəhəng fəaliyyəti barədə yığcam şəkildə məlumat verməyə çalışacağıq.



Heydər Əliyev 1969-cu ildə birinci dəfə respublikaya rəhbərlik etməyə başlayanda Azərbaycan sosial-iqtisadi həyatın bütün sahələrində geridə qalırdı, ona SSRİ-nin perspektivsiz əyalətlərindən biri kimi baxılırdı. Sovet rəhbərliyində hesab edirdilər ki, Azərbaycanın neft yataqları artıq öz keçmiş əhəmiyyətini itirmişdir və onun neftə yönəldilmiş iqtisadiyyatı elə beləcə sürünməyə məhkumdur. Alman faşizmi üzərində qələbənin təmin olunmasında ən həlledici rollardan birini oynayan qədim neft səltənəti belə bir aqibətlə üzləşmişdi. Tənəzzüldən çıxış yolları axtarmaq əvəzinə, respublikanın əvvəlki rəhbərləri mənfi meyillərin daha dərin kök atması ilə barışmışdılar və hakimiyyətdə birincilik uğrunda gizli mübarizəyə qurşanmışdılar.

Belə bir vaxtda Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycanın tarixində dönüşün başlanğıcı oldu. Respublikanın dinamik inkişafına dair kompleks proqramlar işlənib hazırlandı. Heydər Əliyevin təşəbbüsü ilə ittifaq hökuməti Azərbaycan iqtisadiyyatının hərtərəfli və intensiv inkişafına yönəldilmiş beş xüsusi qərar qəbul







etmişdi. Bu, görünməmiş bir iş idi və respublikanın, xalqımızın mənafeləri baxımından tarixi əhəmiyyəti vardı. Heydər Əliyevin yüksək təşkilatçılıq bacarığı, yorulmaz fəaliyyəti sayəsində Azərbaycanın həyatının bütün sahələrində vüsətli dəyişikliklər baş vermişdi. Azərbaycan Rusiya Federasiyasından sonra, ittifaq büdcəsindən dotasiya almadan yaşayan iki respublikadan biri idi. Həmin dövrdə Azərbaycanda güclü iqtisadi potensial yaranmışdı və o, bu gün müstəqil ölkəmizə xidmət edir. Çünki uzaqgörən, müdrik şəxsiyyət Heydər Əliyev çox gözəl başa düşürdü ki, hər bir millətin siyasi müstəqilliyini şərtləndirən əsas amil onun iqtisadi azadlığıdır. Bu baxımdan, indiki mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, dünya iqtisadiyyatına getdikcə daha dərin inteqrasiyası prosesinin hələ 1970-ci illərin sonu - 1980-ci illərin əvvəllərində təməli qoyulmuş potensiala əsaslandığını deyən tədqiqatçıların fikri ilə razılaşmamaq mümkün deyildir.



Həmin illər Azərbaycanın həqiqətən müasir intibah dövrü idi. On beş il ərzində Azərbaycanda 213 iri və orta sənaye müəssisəsi istifadəyə verilmişdi ki, bu da əvvəlki 40 ildə yaradılmış müəssisələrin sayına bərabər idi. SSRİ-nin neftçıxarma sənayesi üçün avadanlığın 70 faizindən çoxu Azərbaycanda istehsal olunurdu. Cihazqayırma, elektron, elektrotexnika kimi yeni sənaye sahələri yaranmışdı. Azərbaycan neftinin əvvəlki şöhrətini qaytarmaq üçün böyük işlər görülmüşdü. Dənizdə neft və qaz hasilatının artırılmasında dönüş yaranmış, 70 metr dərinlikdəki sahələrdə quyular qazmaq üçün qazma qurğuları, nəhəng kranlar, ixtisaslaşdırılmış gəmilər neftçilərin istifadəsinə verilmişdi. Bu gün neft strategiyasının uğurla həyata keçirilməsində xüsusi yeri olan Dərin dəniz özülləri zavodu da məhz o illərdə tikilmişdir.

Aqrar sahədə misilsiz irəliləyiş vardı, on ildə məhsul istehsalı 2,7 dəfə artmışdı. Bu müddətdə üzüm istehsalı 272 min tondan 1481 min tona, pambıq istehsalı 335,6 min tondan 831,2 min tona, tərəvəz istehsalı 410 min tondan 850 min tona çatmışdı. Respublikanın milli gəliri 2,5 dəfə artmışdı. Sənaye istehsalı 2,7 dəfə artmışdı ki, bu da əvvəlki 30 ildə buraxılan məhsulun həcmindən 2 dəfə çox idi. İqtisadiyyata əvvəki 50 ildəkindən 1,4 dəfə çox kapital qoyulmuşdu.

Bakıda, respublikanın şəhər və rayonlarında böyük quruculuq və abadlıq işləri görülmüşdü. 1971-1983-cü illərdə təxminən 18,3 milyon kvadratmetr mənzil tikilmişdi ki, bu da 1920-1983-cü illərdə istifadəyə verilmiş mənzil fondunun 33 faizinə bərabər



idi. Başqa sözlə, 1,7 milyon nəfər, yəni respublikada hər 4 nəfərdən biri mənzil şəraitini yaxşılaşdırmışdı. Azərbaycan kəndinin sosial mənzərəsinin, həyat tərzinin tanınmaz dərəcədə dəyişməsi də məhz bu dövrə təsadüf edir. Həmin illərdə kəndlərdə 4,8 milyon kvadratmetr yaşayış evləri istifadəyə verilmişdir.

Azərbaycan intibahını şərtləndirən mühüm amillər sırasında təhsilin, elm və mədəniyyətin yüksəlişinə xüsusi diqqət yetirilirdi. Çünki müdrik Heydər Əliyev bilirdi ki, mədəniyyətin, mənəviyyatın tərəqqisi ilə müşayiət olunmayan iqtisadi inkişaf bütövlükdə cəmiyyətin davamlı yüksəlişini təmin edə bilməz. Heydər Əliyevin bütün fəlsəfi konstruksiyası xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı. Şübhəsiz ki, kommunist ideologiyasının hakim olduğu bir cəmiyyətdə bu ideyanı açıq şəkildə gerçəkləşdirmək mümkün deyildi. Lakin Heydər Əliyevin müdrikliyi, siyasi məharəti bunun yollarını tapmağa imkan vermişdi. Bu yollar isə ilk baxışda çox sadə görünürdü: Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərinin





respublika və ittifaq səviyyəsində qeyd edilməsi, onların əzəmətli abidələrinin ucaldılması, indiki Bakı Dövlət Universitetinin 50 illik yubileyinin bəzilərinin iddia etdiyi kimi, 1970-ci ildə deyil, tarixi həqiqəti əsas tutaraq 1969-cu ildə keçirilməsi, yeni ali məktəblərin açılması, azərbaycanlı gənclərin ittifaqın aparıcı ali məktəblərinə müsabiqədənkənar qəbul olunması, ədəbiyyatımızda, kinomuzda yeni ruhlu əsərlərə qadağa qoyulmaması və s.

Şübhəsiz ki, bunların heç də hamısı asanlıqla başa gəlmirdi. Daxildəki "bolşevik ruhlu ziyalılar", ən çox isə tarixən Azərbaycana düşmən kəsilmiş erməni millətçiləri respublikada bu prosesə mane olmaq üçün bütün vasitələrə əl atırdılar. Bu baxımdan xalqımızın ən görkəmli oğullarından biri Nəriman Nərimanovun abidəsinin qoyulması, o vaxtlar xüsusilə gənclər arasında populyar olan "Qobustan" toplusu, Azərbaycan kinosunun ən yaxşı nümunələrindən sayılan "Bir cənub şəhərində" filmi ilə bağlı maneələri xatırlatmaq kifayətdir.



Lakin bu əngəllər Heydər Əliyev kimi sözü və əməli bütöv şəxsiyyəti tutduğu yoldan, iradəsindən döndərə bilməzdi. O, açıq və gizli maneələri məharətlə aradan qaldırır, özünə xas dəmir məntiqi ilə haqlı olduğunu sübut edirdi.

Heydər Əliyevin milli dirçəliş, təməli həmin dövrdə qoyulmuş azərbaycançılıq ideologiyası ilk növbədə gənclərə istiqamətlənmişdi. 1970-ci illərin axırlarında SSRİ-





nin müxtəlif ali məktəblərinə hər il 700-800 nəfər, 1980-ci illərin əvvəllərində isə hər il 1000-1400 nəfər göndərilirdi ki, bunların da əksəriyyəti azərbaycanlılar idi. Bu yolla Heydər Əliyev iki məqsədə nail olurdu: respublikanın elmi və kadr potensialı yüksəlir, istedadlı gənclərimiz xalqımızın mədəniyyətini, milli-əxlaqi dəyərlərini təbliğ etməklə Azərbaycan haqqında ona layiq olan rəy və təsəvvür formalaşdırırdılar. Həmin gənclərin bir hissəsi təhsil aldıqları yerdə qalıb işləmişdir və hazırda keçmiş sovet məkanındakı Azərbaycan diasporunun özəyini təşkil edir.

Respublikaya rəhbərliyinin birinci dövründə Heydər Əliyevin xidmətlərindən danışarkən Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbin açılmasını xüsusi vurğulamaq lazımdır. Xalqın milli hərbi kadrları olmasının əhəmiyyətini yaxşı başa düşən general Heydər Əliyev bütün manеələrə və çətinliklərə baxmayaraq, keçmiş sovet məkanında ilk belə məktəbin açılmasına nail olmuşdu. 1970-ci illərdə Azərbaycandan hərbi təhsil müəssisələrinə oxumağa hər il 300-400 gənc göndərilirdi. 1980-ci illərin əvvəllərində isə belə gənclərin sayı 800-1000 nəfərə çatmışdı ki, onların











da çoxu azərbaycanlı idi. Heydər Əliyevin fəxr etdiyi bu məktəb hazırda hərbi lisey kimi uğurla fəaliyyət göstərir.

Heydər Əliyev xalqın milli dirçəlişi, milli özünüdərki məsələsində Azərbaycan dilinə böyük əhəmiyyət verirdi. Onun qayğısı sayəsində Azərbaycan dilinə uzun illərdən bəri davam edən çox soyuq münasibətə son qoyulmuşdu. Məhz bu böyük şəxsiyyətin iradəsinin nəticəsi idi ki, respublikanın 1978-ci ildə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edilmişdi. Sonralar, müstəqillik illərində respublikaya rəhbərlik edərkən ölkə həyatının bütün sahələrində Azərbaycan dilinin mövqeyinin möhkəmləndirilməsi üçün böyük işlər görən Heydər Əliyev çıxışlarından birində demişdir: "Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir".

Heydər Əliyev həmin illərdə gördüyü işlərlə ziyalıların, bütün xalqın diqqətini tarixi və mədəni qaynaqlara yönəldirdi, xalq öz milli mədəniyyətinin qatlarını sanki təzədən açır və yenidən qiymətləndirirdi. Qətiyyətlə deyə bilərik ki, həmin dövrdə Azərbaycan gənclərinin bütöv bir nəsli Heydər Əliyevdən əsil həyat dərsi almışdır. Bu, doğma Vətənə, mənsub olduğu xalqa, onun tarixinə, qədim və zəngin mədəniyyətinə, adət və ənənələrinə sadiqlik dərsi idi. Ona görə də tədqiqatçılar Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünü milli özünüdərkin oyanmasının, öz kökümüzə qayıdışın və müraciətin yeni mərhələsinə doğru aparan proseslərin başlanğıcı kimi səciyyələndirirlər.

241559

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası





Heydər Əliyev Moskvada işlədiyi dövrdə də respublikaya daim qayğı göstərirdi. Xalqa, doğma Vətənə bağlılığı onun yüksək vəzifə səlahiyyətlərinin verdiyi geniş imkanlardan istifadə edərək, Azərbaycan üçün böyük işlər görməsini şərtləndirən amil idi. Bu illərdə Azərbaycan özünün inkişafı üçün SSRİ-nin mümkün olan bütün imkan və vasitələrindən maksimum bəhrələnirdi.

Artıq bu məqamdan başlayaraq, Heydər Əliyev 15 müttəfiq respublikadan birinin rəhbəri deyil, Sovetlər İttifaqı kimi nəhəng bir dövlətin rəhbərlərindən biri idi. Onun nüfuzu yüksəlir, işinin miqyası da, əhəmiyyəti də fövqəladə dərəcədə artırdı.

Sovetlər İttifaqının siyasi idarəçiliyinə daxil olan, hökumətdə mühüm yer tutan Heydər Əliyev sosial-iqtisadi kompleksin ən vacib sahələrinə rəhbərlik edirdi. İttifaq əhəmiyyətli 15 böyük nazirlik onun tabeçiliyində fəaliyyət göstərirdi.

14 illik respublika rəhbərliyi, üstəgəl 5 il də nəhəng bir dövlətin ali hakimiyyət eşelonunda yorulmaz fəaliyyət böyük enerji tələb edirdi. Bəlkə də onunla fəxr edən sıravi azərbaycanlılar heç təsəvvürlərinə də gətirməmişdilər ki, bütün bu uğurlar hansı gərgin zəhmətin, hansı həyat və iş tempinin sayəsində başa gəlirdi...







1990-cı ilin yayında Moskvadan Vətənə qayıdan Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işlədiyi illər Azərbaycanın istiqlalı yolunda xüsusi mərhələ olmuşdur. Onun rəhbərliyi altında muxtar respublika Azərbaycanın dövlət müstəqilliyinə doğru irəliləməsində bayraqdar rolu oynayırdı. SSRİ-nin saxlanması üçün keçirilən qondarma referendum burada boykot edilmiş, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi ilk dəfə burada qəbul olunmuş, rus (sovet) qoşun hissələri muxtar respublikadan çıxarılmış, 1990-cı ilin 20 Yanvar faciəsinə həqiqi siyasi qiymət verilmişdir. Naxçıvan həqiqətən milli azadlıq və milli dövlət quruculuğu nümunəsi göstərirdi. Heydər Əliyevin muxtar respublikaya rəhbərlik etməsi Azərbaycanın bu qədim diyarının erməni işğalından xilas olmasında başlıca rol oynamışdır. Qarşılaşdığı bütün çətinlikləri dəf etmiş muxtar respublikada sabitliyin, əmin-amanlığın təmin olunması məhz Heydər Əliyevin müdrikliyinin, siyasi təcrübəsinin və iradəsinin nəticəsi idi.



Ona görə də 1993-cü ilin yayında Azərbaycanın "olum, ya ölüm" dilemması qarşısında qaldığı bir vaxtda xalqın təkidlə Heydər Əliyevin hakimiyyətə qayıtmasını tələb etməsi heç də təsadüfi deyildi. Həmin il iyunun 15-də müdrik siyasətçinin, təcrübəli və yenilməz iradəli dövlət xadiminin hakimiyyətə tarixi qayıdışı ilə Azərbaycan tarixinin Heydər Əliyev dövrü özünün yeni, daha şərəfli və əzəmətli mərhələsinə daxil oldu. Bu qayıdışla ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-








mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı.

Bütün bunlara nail olmaq üçün ilk növbədə ölkədə ictimai-siyasi sabitliyi təmin etmək lazım idi. Çünki bunsuz dağılmış iqtisadiyyatın bərpası, xarici sərmayələrin cəlb olunması, dövlət quruculuğu ilə məşğul olmaq mümkün deyildi. Heydər Əliyevin qətiyyətli səyləri sayəsində bu istiqamətdə ciddi tədbirlər görüldü. Azərbaycan dövlətçiliyinin varlığına böyük təhlükə olan 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət çevrilişi cəhdlərinin qarşısı alındı. Ayrı-ayrı daxili və xarici qüvvələr tərəfindən Prezidenti fiziki cəhətdən məhv etmək üçün dəfələrlə təşkil olunmuş sui-qəsdlər zərərsizləşdirildi, dövlətçiliyimiz qorunub saxlandı. Silahlı







yolla hakimiyyətə gəlmək cəhdlərinə birdəfəlik son qoyuldu, ölkədə möhkəm, davamlı sabitlik təmin edildi.

Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrdə ən ümdə məsələlərdən biri Ermənistanın getdikcə genişlənən təcavüzünün qarşısını almaq idi. Ümummilli liderimizin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində bir tərəfdən, Azərbaycanın milli maraqlarını qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən, ataşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı.

Nəticədə ayrı-ayrı xarici mərkəzlərdən dəstək alan Ermənistan silahlı qüvvələrinin azğınlığının qarşısı alındı. Güclü əks-zərbələr alan düşmən danışıqlara getməyə məcbur oldu və 1994-cü ilin mayında atəşkəs haqqında saziş imzalandı.

• • •

Heydər Əliyevin fəaliyyətinin ən mühüm, strateji əhəmiyyət daşıyan istiqamətlərindən biri bazar münasibətlərinə keçidin tələblərinə uyğun iqtisadi siyasət hazırlayıb reallaşdırmaq, ölkə iqtisadiyyatını böhran vəziyyətindən qurtarıb dirçəltmək, sonra isə inkişaf yoluna çıxarmaq idi. Bu baxımdan ilk və həyati əhəmiyyətli addım müstəqil Azərbaycanın yeni neft strategiyasının işlənib hazırlanması olmuşdur. 1994-cü il sentyabrın 20-də dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanması ilə Heydər Əliyev nəinki neft strategiyasının təməlini qoydu, ümumiyyətlə Azərbaycan iqtisadiyyatının inkişafının ana xəttini müəyyən etdi. Beləliklə, Heydər Əliyev dünyanın diqqətini Cənubi Qafqaz regionuna cəlb etdi, Azərbaycanının iqtisadi cəhətdən dünya birliyinə inteqrasiyasının təməlini qoydu.

Lakin "Əsrin müqaviləsi"nin imzalanması heç də asan başa gəlməmişdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində atəşkəsin yenicə əldə edildiyi, bəzi qonşu dövlətlərlə münasibətlərdə gərginliyin olduğu, Xəzərin hüquqi statusu ilə bağlı mübahisələrin kəskinləşdiyi, ölkədə ictimai-siyasi sabitliyin hələ tam bərqərar edilmədiyi, Azərbaycana kənar təzyiqlərin artdığı bir şəraitdə belə böyük müqavilənin imzalanmasının mümkünlüyünə çoxları şübhə edirdi. Ancaq buna təkcə iqtisadi deyil, həm də strateji siyasi məsələ kimi baxan Heydər Əliyev özünün dəmir iradəsini, qətiyyətini və müdrikliyini bir daha nümayiş etdirdi. Bununla da




Azərbaycanın gələcək inkişafını şərtləndirən silsilə neft müqavilələrinin imzalanmasının başlanğıcı qoyuldu. Xatırladaq ki, indiyədək 30-dan çox xarici şirkətin iştirakı ilə 25 müqavilə imzalanmışdır.

Heydər Əliyev neft strategiyasının məqsədləri barədə demişdir: "Azərbaycan 1994-cü ildən özünün yeni neft strategiyasını həyata keçirməyə başlamışdır. Bu strategiyanın əsas mənası, mahiyyəti və prinsipləri ölkənin təbii sərvətlərindən, o cümlədən neft və qaz yataqlarından Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən ibarətdir".

"Əsrin müqaviləsi"nin həyata keçirilməsi qısa bir zamanda bəhrəsini verməyə başladı. 1997-ci ilin axırlarına yaxın bu müqavilə çərçivəsində ilkin neftin hasilatına başlandı. Müqavilənin əhatə etdiyi "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının tammiqyaslı işlənilməsinə başlandıqdan sonra buradan hər il 50 milyon ton "qara qızıl" çıxarılacaqdır. İndiyədək "Əsrin müqaviləsi" çərçivəsində həyata keçirilmiş tədbirlərə 3,4 milyard dollar vəsait xərclənmiş, Azərbaycanda 40 minə yaxın iş yeri açılmışdır.

Heydər Əliyevin yeni neft strategiyasının həyata keçirilməsinin zirvəsi, şübhəsiz ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsidir. Onun reallaşdırılmasına göstərilən təzyiqlər, bu yoldakı maneə və çətinliklər çoxlarına məlumdur. Lakin Heydər Əliyevin cəsarəti, qətiyyəti və müdrikliyi bütün bunların qarşısını aldı və artıq əfsanədən reallığa çevrilən bu kəmər yaxın vaxtlarda işə düşəcək, Azərbaycanın və ümumən regionun







inkişafında böyük rol oynayacaqdır. Daha bir iri layihənin, Bakı-Tbilisi-Ərzurum kəmərinin reallaşdırılması ilə Azərbaycanın təbii qazı da Avropa bazarına çatdırılacaqdır.

Prezident İlham Əliyev Azərbaycanın yeni neft strategiyasının ölkəmiz üçün əhəmiyyətini qısaca belə səciyyələndirmişdir: "Şübhə yoxdur ki, əgər 1994-cü ildə Heydər Əliyevin uzaqgörənliyi, cəsarəti olmasaydı, biz bütün bu nailiyyətləri əldə edə bilməzdik. Ümumiyyətlə, indi təsəvvür etmək çətindir ki, əgər biz xarici şirkətlərlə bu işlərə başlamasaydıq, Azərbaycanın indiki vəziyyəti necə olardı".









Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən iqtisadi siyasət Azərbaycan iqtisadiyyatının davamlı inkişafına yol açmışdır. Son yeddi il ərzində ölkədə ümumi daxili məhsul istehsalı orta hesabla on faiz təşkil etmişdir. 2004-cü ilin makroiqtisadi göstəriciləri bunu bir daha təsdiqləyir. Həmin il ÜDM 10,2 faiz, sənaye məhsulunun (işlərin, xidmətlərin) ümumi həcmi 5,7 faiz, əsas kapitala yönəldilmiş sərmayələr 36,2 faiz, kənd təsərrüfatı istehsalı 4,6 faiz, xarici ticarət dövriyyəsi 36,7 faiz (o cümlədən ixrac 39,6 faiz, idxal 33,9 faiz), dövlət büdcəsinin gəlirləri 33,1 faiz, əhalinin nominal pul gəlirləri 20,7 faiz artmışdır.

Regional inteqrasiya proseslərində fəal iştirak etmək Heydər Əliyevin iqtisadi inkişaf konsepsiyasının tərkib hissəsidir. Azərbaycanın Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən əsas nəqliyyat dəhlizlərinin qovuşuğunda yerləşməsi qloballaşma





baxımından ölkəmizin təkcə regional layihələrdə deyil, həm də beynəlxalq layihələrdə əhəmiyyətini artırmışdır. Heydər Əliyevin təşəbbüsü ilə GUÖAM təşkilatının yaradılması bir sıra dövlətlərin mənafelərinin siyasi və iqtisadi cəhətdən birləşdirilməsi yolunda ilk addım olmuşdur. Azərbaycan Avropa Birliyinin dəstəyi ilə həyata keçirilən TRASEKA - Böyük İpək yolunun bərpası layihəsinin təşəbbüsçülərindən biri və onun fəal iştirakçısıdır. Heydər Əliyevin müdrikliyi sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrilmişdir və onun iştirakı olmadan burada hər hansı irimiqyaslı layihə həyata keçirilə bilməz.



Heydər Əliyev siyasi hakimiyyətə qayıdaraq parlamentin sədri kimi fəaliyyətə başladığı vaxtdan Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun əsas vəzifələrdən biri olduğunu bəyan etmişdi: "Biz Azərbaycanda demokratik müstəqil respublika quraraq, sivilizasiyalı cəmiyyət uğrunda mübarizə apararaq, ümumi dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik... Bizim yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən bəhrələnərək, dünya demokratiyasından,



ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir".

Bu məqsədə çatmaq üçün isə ilk növbədə demokratik qanunlar qəbul edilməli idi. Həmin qanunların təməlini isə Konstitusiya təşkil edir. Müstəqil Azərbaycanın Prezidenti Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş ilk Konstitusiyası belə bir bünövrəni təmin etdi. Daha sonra hüquqi dövlət qurulmasına yönəldilən islahatların aparılması məqsədi ilə Hüquq İslahatları Komissiyası yaradıldı. Prezidentin bilavasitə rəhbərlik etdiyi Komissiya dövlətin hüquqi bazasının yaradılması, möhkəmləndirilməsi və inkişafında, yeni məhkəmə sisteminin qurulmasında, hüquq mühafizə orqanlarının işinin təkmilləşdirilməsində, Azərbaycanın hüquq sisteminin Avropanın kontinental hüquq sisteminə inteqrasiyasında mühüm rol oynamışdır. Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində hüquqi dövlət quruculuğu məqsədi ilə siyasi, iqtisadi, sosial, hüquqi islahatlar həyata keçirilmiş, cəmiyyətdə demokratik dəyərlərin möhkəmləndirilməsi yolunda mühüm addımlar atılmışdır. Ölkədə demokratik, azad, ədalətli və şəffaf seçki sistemi, siyasi partiyaların və qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. Kütləvi informasiya vasitələri tam sərbəst şəkildə fəaliyyət göstərir, məlumat azadlığı təmin edilmişdir. Cəmiyyət və dövlət həyatında baş verən dəyişikliklər, Azərbaycanın Avropa hüquq məkanına qoşulmasından irəli gələn reallıqlar nəzərə alınaraq, Əsas Qanuna dəyişikliklər və əlavələr edilməsi üçün 2002-ci il avqustun 24-də ümumxalq səsverməsi yolu ilə Referendum aktı qəbul olunmuşdur. Bununla da insan və vətəndaş hüquqları üçün təminat genişləndirilmiş, onların daha yüksək səviyyədə qorunmasına şərait yaranmışdır.

Ümummilli liderimizin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlamışdır. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalaradan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur. Onun fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilmişdir. Heydər










Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir. Azərbaycanın xarici tərəfdaşları açıq etiraf edirlər ki, Heydər Əliyev dövlətin xarici siyasət konsepsiyasını düzgün və dəqiq quraraq, onu dünya inkişafının qlobal meyilləri ilə əlaqələndirmişdir.

Heydər Əliyevin xarici siyasət fəaliyyətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi daim xüsusi yer tutmuşdur. Müharibədə atəşkəs əldə edildikdən sonra o, əsas diqqəti xaricdəki havadarlarından hər cür yardım və dəstək alan Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın düçar olduğu bəlaları, münaqişənin əsil səbəbləri barədə həqiqətləri dünya ictimaiyyətinə çatdırmağa, ölkəmizin üzləşdiyi ən ağrılı problemin sülh yolu ilə aradan qaldırılmasına yönəltmişdir. Bu məsələlər Prezident Heydər Əliyevin Azərbaycanda və xaricdə dövlət və hökumət başçıları ilə görüşləri və danışıqları, BMT, Avropa Şurası, ATƏT, NATO, İslam Konfransı Təşkilatı və digər beynəlxalq və regional təşkilatların tədbirlərində iştirakı zamanı daim diqqət mərkəzində olmuşdur. Təəssüf ki, təcavüzkar Ermənistanın qeyri-konstruktiv mövqeyi, habelə dünyada hələ də mövcud olan ikili standartlar siyasəti Cənubi Qafqazda davamlı sülh, təhlükəsizlik və tərəqqiyə ən böyük maneə olan bu münaqişənin həllinə imkan verməmişdir.



Bu istiqamətdə fəaliyyət Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Artıq dünyanın bir sıra dövlətləri, beynəlxalq təşkilatlar, o cümlədən Avropa Şurası Ermənistanı işğalçı dövlət, Dağlıq Qarabağ rejimini isə separatçı rejim kimi tanıyır, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Beynəlxalq ictimaiyyətin bu problemə diqqəti getdikcə artır və əminik ki, Azərbaycanın haqq işi qalib gələcək, ölkəmizin ərazi bütövlüyü bərpa olunacaqdır.

Tədqiqatçılar ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi uzun illər ərzindəki xidmətlərindən danışarkən azərbaycançılıq ideologiyasını xüsusi vurğulayırlar. Azərbaycançılıq milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların qardaşlığı, qarşılıqlı əlaqəsi və təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizənin tarixi təcrübəsidir. Bu ideologiya unitar, hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmləndirilməsinə və inkişafına yönəldilmişdir. İdeologiya kimi azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfi-sosioloji doktrinasının sosiomədəni və etno-geopolitik cəhətlərini özündə birləşdirir. Heydər Əliyevin azərbaycançılıq ideologiyasının əsasında Azərbaycan xalqının tarixi, mənəvi-əxlaqi, mədəni ənənələri zəminində birlik ideyası durur və nəinki indi, həm də uzaq gələcəkdə azərbaycanlıların bir çox nəsillərinə xidmət edəcək, müstəqillik, milli eyniyyət həmin nəsillər üçün həyatı, azadlığı dərk etməyin ayrılmaz atributlarına çevriləcəkdir. Heydər Əliyev azərbaycançılıq ideologiyasının başlıca prinsiplərinin - dövlətçilik, ana dili, din, milli mədəniyyət, milli-mənəvi dəyərlər və s. inkişafı və cəmiyyət tərəfindən mənimsənilməsi sahəsində ardıcıl və məqsədyönlü addımlar atmışdır.

Ümummilli liderimiz azərbaycançılıq ideyalarının yayılmasına və bütün dünyada yaşayan soydaşlarımızın birləşdirici bir amalına çevrilməsinə xüsusi əhəmiyyət verirdi. O, xarici dövlətlərə səfərləri zamanı həmin ölkələrdə yaşayan azərbaycanlılarla görüşür, onları tarixi vətənlə sıx əlaqə saxlamağa çağırırdı. Xaricdə Azərbaycan diasporunun təşkilatlanması sahəsində görülən işlər tədricən öz bəhrəsini verirdi. Bu işi dövlət siyasəti səviyyəsinə qaldıran Prezident Heydər Əliyevin fərmanı ilə ayrıca struktur - Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. Bu istiqamətdə ən mühüm hadisələrdən biri Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ilin noyabrında Bakıda Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi





olmuşdur. Ümummilli liderimiz həmin qurultaydakı nitqində Azərbaycanın dövlət strategiyası olan azərbaycançılığı xüsusi vurğulamışdır: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".



Müstəqil Azərbaycanın beynəlxalq birlikdə öz yerini tutması, Azərbaycan həqiqətlərinin dünyada tanıdılması məhz Heydər Əliyevin xidmətləri sayəsində mümkün olmuşdur. Yalnız onun yenidən siyasi hakimiyyətə qayıtmasından sonra Azərbaycan özünün geosiyasi imkanlarını gerçəkləşdirə bilmiş, ölkənin beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qalxmışdır. Heydər Əliyev dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından həmişə öz sözü, sanbalı ilə seçilmişdir. Azərbaycan xalqının yetirdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev vətənin ən ağır bir dövründə xalqın gələcək taleyi üçün məsuliyyəti öz üzərinə götürərək, bir çox siyasi xadimin edə bilmədiyi və bilməyəcəyi işləri gerçəkləşdirmiş, qloballaşan dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı nümayiş etdirmişdir. Bütün həyatı boyu daim xalqını, vətənini düşünən Heydər Əliyevin qəlbi Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi, xoşbəxt gələcəyi üçün çırpınmışdır.

Çox nadir fitri istedada malik olan Heydər Əliyev uzaqgörən siyasi xadim kimi tarixi hadisələrin gedişini irəlicədən müəyyən edə bilir, millətin taleyi üçün böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zaman əsil vətənpərvərlik göstərir, tam qətiyyətlə hərəkət etməyi bacarırdı.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu kimi Heydər Əliyevin fəaliyyətinin çoxəsrlik dövlətçiliyimizin tarixində müstəsna yeri vardır. Öz əhəmiyyəti baxımından onun fəaliyyəti Azərbaycanın hüdudlarından çox-çox kənara çıxır. Bu səbəbdən də təkcə Azərbaycanda deyil, həm də bütün postsovet məkanında, eləcə də dünya miqyasında gedən prosesləri Heydər Əliyevin şəxsiyyətindən və fəaliyyətindən kənarda təsəvvür etmək mümkün deyildi. Heydər Əliyev öz parlaq zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış, dövlət müstəqilliyimizi əbədi və dönməz etmiş, onu işıqlı sabaha doğru aparan yolları müəyyənləşdirmişdir.

Heydər Əliyev böyük siyasi xadim, xalqın şəksiz lideri kimi hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. Buna görə də Heydər Əliyev fenomeni həmişə diqqəti cəlb





etmiş, dünyanın məşhur dövlət xadimlərindən tutmuş müxtəlif peşə sahiblərinə qədər ən müxtəlif adamlar onun haqqında heyranlıqla söhbət açmışlar. Ona görə də Heydər Əliyevi Azərbaycanın bəxtinə düşmüş Tanrı payı adlandıranlar, onu Corc Vaşinqton, Franklin Ruzvelt, Uinston Çörçill, Atatürk, Şarl de Qoll, Konrad Adenauer kimi məşhur şəxsiyyətlərlə müqayisə edənlər, siyasət nəhəngi, dünya siyasətinin patriarxı, siyasət şahmatının ustası, virtuoz adlandıranlar heç də yanılmırlar. Çünki o, həqiqətən dahi şəxsiyyət idi.

Heydər Əliyevin doğma Azərbaycan, xalqımız, bütün region üçün gördüyü misilsiz işlər özlüyündə nə qədər böyük və əhəmiyyətli olsa da, bunların əzəmətini olduğu kimi dərk etmək bizim üçün bəlkə də hələ çətindir. Yaqin ona görə ki, bu dahi insanın müasiri olduğumuz üçün bütün bu nəhəng işlər bizə adi görünür. Ona görə də "Azərbaycan xalqı Heydər Əliyevin böyüklüyünü hələ bundan sonra daha dərindən dərk edəcəkdir", "Heydər Əliyevin xalq qarşısındakı xidmətlərinin əsil qiymətini gələcək nəsillər verəcəkdir" deyənlərlə razılaşmamaq mümkün deyildir.

* * *

Bakının dağüstü hissəsində, öz fəaliyyətləri ilə Azərbaycana və xalqımıza şan-şöhrət gətirmiş neçə-neçə görkəmli insanın əbədi uyuduğu, son iki ildə artıq ümumxalq ziyarətgahına çevrilmiş Fəxri xiyabanda Heydər Əliyevin qranitdən yonulmuş gözəl bir abidəsi var. Bu abidədə ümummilli liderimizin məğrur baxışları uzaqlara, sanki bizlərə əmanət qoyub getdiyi müstəqil Azərbaycanı gözləyən işıqlı gələcəyə zillənmişdir. Xalq rəssamı, akademik Ömər Eldarovun son işlərindən biri olan bu əzəmətli abidə həqiqətən əsil sənət əsəridir. Hələ bundan sonra da ölkəmizin müxtəlif guşələrində Böyük Azərbaycanlının neçə-neçə abidəsi qoyulacaqdır. Lakin Azərbaycanın dahi oğlu ən böyük abidəsini hələ sağlığında özü ucaltmışdır. Bu abidə ürəyində Vətən, xalq məhəbbəti olan hər bir azərbaycanlının qəlbindədir. Ona görə də nə qədər ki müstəqil Azərbaycan var, nə qədər ki Azərbaycan xalqı var, ulu öndər Heydər Əliyev ürəklərdə yaşayacaqdır.



# *Heydər Əliyev* *Fondunun məqsədləri*

Azərbaycan xalqının öz oğluna sonsuz ehtiramının daha bir ifadəsi olan Heydər Əliyev Fondunun rəsmi açılışı 2004-cü il mayın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə olmuşdur.

Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev bütün ömrünü doğma Vətənin iqtisadi, sosial və mədəni tərəqqisinə, xalqımızın firavanlığı və xoşbəxtliyi, ölkəmizin dünya birliyində özünəməxsus layiqli yer tutması uğrunda mübarizəyə həsr etmişdir. O demişdir: "Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm. Bundan sonrakı ömrümü də onun işıqlı sabahları uğrunda qurban verməyə hazıram". Dünya şöhrətli siyasi və dövlət xadimi Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 35 ilə yaxın bir dövr ərzindəki titanik fəaliyyəti bu sözlərdəki həqiqəti dəfələrlə təsdiq etmişdir.

Xalqımızın müdrik rəhbəri Heydər Əliyevin işləyib hazırladığı və özünəməxsus əzm və iradə ilə həyata keçirdiyi müstəqil dövlətçilik strategiyasını onun siyasi xəttinin layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir.

Heydər Əliyev Fondunun yaradılması da bu nəcib və mühüm məqsədə xidmət edir.

Onun həmişəyaşar milli dövlətçilik, azərbaycançılıq məfkurəsinin həyata keçirilməsi, işıqlı əməllərinin davam etdirilməsi üçün zəngin nəzəri-fəlsəfi, siyasi irsinin dərindən öyrənilməsi müstəsna əhəmiyyətə malikdir. Fondun yaradılmasının ümdə məqsədlərindən biri məhz Heydər Əliyevin zəngin irsinin, onun xalq, Vətən qarşısında misilsiz xidmətlərinin dərindən, hərtərəfli öyrənilməsinə və təbliğinə, Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə ondan istifadə olunmasına yönəldilmiş genişmiqyaslı proqramların və tədbirlərin həyata keçirilməsidir.

Müstəqil Azərbaycanın iqtisadi qüdrətinin dirçəldilməsi, artırılması və möhkəmləndirilməsi Heydər Əliyevin işləyib hazırladığı milli dövlətçilik strategiyasının məhək daşlarından biri idi. Onun ölkə iqtisadiyyatının hərtərəfli inkişafı, qloballaşan

dünya iqtisadiyyatına inteqrasiyası sahəsində, həqiqətən, misilsiz fəaliyyəti nəticəsində ölkəmiz sürətli iqtisadi inkişaf yoluna qədəm qoymuşdur. Heydər Əliyevin adı ilə bilavasitə bağlı olan neft strategiyasının uğurla həyata keçirilməsi, iqtisadiyyatın digər sahələrinin inkişafı, bazar iqtisadiyyatına keçidlə əlaqədar genişmiqyaslı iqtisadi islahatlar öz bəhrəsini verməkdədir. Fondun yaradılmasının əsas məqsədlərindən biri də müdrik rəhbərimizin bu yöndəki arzu və niyyətlərinin gerçəkləşdirilməsinə xidmət edən beynəlxalq miqyaslı iqtisadi layihələrin həyata keçirilməsini dəstəkləmək və onlarda iştirak etməkdir.

Heydər Əliyevin çoxşaxəli fəaliyyətində ölkənin iqtisadi, sosial və mədəni tərəqqisində mühüm amillərdən olan elm, təhsil və mədəniyyətin, səhiyyə və idmanın inkişaf etdirilməsi məsələləri əhəmiyyətli yer tuturdu. Fond da öz növbəsində, bütün







bu sahələrdəki layihələrin həyata keçirilməsinə, xüsusilə də azərbaycançılıq məfkurəsinin bərqərar olunmasına, milli-mənəvi dəyərlərin qorunmasına və təbliğinə, böyüməkdə olan gənc nəslin sağlam, hərtərəfli biliyə malik, layiqli Vətəndaş kimi yetişməsinə yardım edir.

Heydər Əliyev müstəqil Azərbaycanın beynəlxalq aləmdə tanınmasında, ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında, Vətənimizin dünya birliyində nüfuzunun artırılmasında və özünəməxsus yer tutmasında misilsiz xidmətlər göstərmişdir. Fond onun bu yöndə gördüyü işləri davam etdirir, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin keçirilməsinə yardım göstərir.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Fondun açılış mərasimindəki nitqində demişdir: *"On il tarix baxımından böyük bir müddət deyildir. Amma baxın, son on ildə Azərbaycanda nə qədər böyük işlər görülübdür. Azərbaycan nə qədər böyük uğurlar əldə edibdir. Bütün bu uğurlara görə biz xalqımızın ümummilli lideri Heydər Əliyevə borcluyuq.*

*Bu gün onun adını daşıyan Fondun təqdimat mərasimi keçirilir. Bu ideya yeni deyildir. Bir neçə il bundan əvvəl belə bir fikir yaranmışdı ki, Heydər Əliyev Fondu yaradılsın. O da bu fikrə müsbət yanaşmışdı, ancaq bunu həyata keçirmək mümkün olmadı. Amma biz hesab etdik ki, bu gün belə bir Fond lazımdır. Bu Fond artıq yaradılıbdır. Fond Heydər Əliyevin siyasi irsini öyrənəcək, onu təhlil, tədqiq və təbliğ*











*edəcəkdir. Fondun qarşısında böyük vəzifələr durur. Fond ictimai təşkilatdır. Ümid edirəm ki, Azərbaycanın ictimai həyatında Fondun rolu böyük olacaqdır.*

*Bu gün Heydər Əliyev bizimlə deyil, amma onun fiziki yoxluğu bizi ruhdan salmamalıdır. Onun ideyaları yaşayır, onun siyasəti yaşayır, onun fəlsəfəsi, azərbaycançılıq fəlsəfəsi, ideologiyası yaşayır və onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır və onun yolu ilə inkişaf edir. Hamımızın borcudur ki, biz doğma Vətənimizi onun yolu ilə irəliyə aparaq. Hamımızın borcudur ki, onun siyasətini yaşadaq, Azərbaycanı gücləndirək və onun istədiyi kimi, onun yolu ilə gələcəyə aparaq. Mən əminəm və şübhə etmirəm ki, biz bunu edəcəyik.*

*Azərbaycanda Heydər Əliyev siyasətinə alternativ yoxdur. Bu siyasət Azərbaycana böyük uğurlar gətiribdir və əminəm ki, daha yeni-yeni uğurlar gətirəcəkdir".*



## *Heydər Əliyev*
## *Fondunun fəaliyyəti*
## *2004-2005*

Heydər Əliyev Fondu 2004-cü ilin may ayında fəaliyyətə başladığı andan ötən bir ildə özünün məqsəd və məramlarından irəli gələn bir sıra çox mühüm layihələrin həyata keçirilməsi istiqamətində konkret işlər görmüşdür. Bir il müddətinin az olmasına baxmayaraq Fond bu müddət ərzində əsaslı fəallığı və əzmkarlığı ilə fərqlənmişdir.

Heydər Əliyev Fondu tərəfindən 2004-cü ilin sentyabr ayında "Mən Azərbaycanı sevirəm" mövzusunda rəsm sərgisinin keçirilməsi ən yaddaqalan tədbirlərdən biri olmuşdur. Səttar Bəhlulzadə adına sərgi salonunda təşkil olunmuş bu sərgidə respublikanın müxtəlif bölgələrindən 30-dək uşaq evi və internat məktəblərinin təmsilçiləri öz işlərini nümayiş etdirmişlər.

Sərginin təşəbbüsçüsü ümummilli liderimiz Heydər Əliyevin nəvəsi Leyla Əliyeva idi. O, bu sərginin keçirilməsi üçün uşaq evləri və internat məktəblərinə gedərək, istedadlı uşaqlarla görüşmüş, onların işləri ilə tanış olmuşdur.

Fondun prezidenti Mehriban xanım Əliyeva hər zaman vurğulayır ki, kimsəsiz, valideyn himayəsindən məhrum, fiziki qüsurları olan, müxtəlif xəstəliklərə düçar olmuş, habelə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində qaçqın-köçkün həyatı







yaşayan uşaqlara qayğı ulu öndərimiz Heydər Əliyevi daim düşündürən məsələlərdən idi. Ona görə də ümummilli liderimizin adını daşıyan Fond bu uşaqlara mümkün qədər qayğı göstərməyi, onların öz istedadlarını nümayiş etdirə bilmələri üçün hər bir imkandan istifadə edir, hamını bu nəcib, xeyirxah təşəbbüsə qoşulmağa çağırır.

Sərginin açılış mərasimində iştirak edən ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun rəhbərləri, yerli və xarici şirkətlərin nümayəndələri nümayiş etdirilən rəsmlərdən böyük zövq aldığını, Fondun prezidentinin mərhəmətə çağırışını alqışladığını söyləmişlər. Sərginin balaca iştirakçıları üçün nahar süfrəsi açılmış, əyləncəli proqram təşkil olunmuş, onların hər birinə hədiyyələr təqdim edilmişdir.



Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yurd-yuvasından didərgin düşərək qaçqın-köçkün vəziyyətində, ağır şəraitdə yaşayan soydaşlarımız da Fondun diqqətindən kənarda qalmır. Fondun prezidentinin şəxsi təşəbbüsü ilə Biləsuvar, Sabirabad, İmişli rayonlarına səfərlər təşkil olunmuş, məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları şəhərciklərdəki məktəblərin on min nəfərədək birinci sinif şagirdlərinə məktəb ləvazimatı və hədiyyələr təqdim olunmuşdur. Belə ki, təhsil sahəsində həyata keçirilən layihələr çərçivəsində Heydər Əliyev Fondu bu işi ənənə olaraq hər il davam etdirməyi nəzərdə tutur.





Ümummilli liderimiz respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə uşaq və gənclərə daim qayğı göstərmiş və ictimaiyyəti də bu vacib işə kömək etməyə çağırmışdır. Bu baxımdan Heydər Əliyevin çıxışlarından birində dediyi sözləri xatırlatmaq istərdik: *"Uşaqlar cəmiyyətimizin aynasıdır. Bizim arzumuz budur ki, bu ayna həmişə ləkəsiz, təmiz və işıqlı olsun. Uşaqlar bugünümüz və gələcəyimizdir. Hər birimiz öz gündəlik həyatımızla məşğul olarkən bizlərin nəvazişinə və qayğısına ehtiyacı olan bir nəslin mövcudluğunu unutmamalıyıq. Çoxları üçün əhəmiyyətsiz görünən adi anlar onların həyatını bayrama çevirə bilər. Biz yalnız və yalnız bircə təbəssümlə onlara dünyaları bəxş edə bilərik. Gəlin onları unutmayaq, o zaman biz də unudulmarıq"*.



Heydər Əliyev Fondunun fəaliyyətinin ən mühüm istiqamətlərindən biri səhiyyə sahəsində olan fəaliyyəti və müxtəlif xəstəliklərə düçar olmuş insanların müalicəsi ilə bağlı layihələrin həyata keçirilməsidir. Bu sahədə ilk tədbirlərdən biri 2004-cü il dekabrın 4-də Fondda keçirilən "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsinin təqdimatı idi.

Heydər Əliyev Fondunun, Azərbaycan Diabet Cəmiyyətinin və Danimarkanın yüksək keyfiyyətli insulin istehsalı sahəsində dünyada lider olan Novo Nordisk şirkətinin birgə layihəsinin əsas məqsədi ictimaiyyətin, yerli və xarici şirkətlərin



diqqətini Azərbaycanda diabetli uşaqların problemlərinin həllinə yönəltmək, Beynəlxalq Diabet Federasiyasının bu işdə iştirakını fəallaşdırmaqdır.



Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva təqdimat mərasimində bildirmişdir ki, Azərbaycanda bu xəstəliyə tutulanların 310 nəfəri 14 yaşınadək olan uşaqlardır və bizim, Fondun vəzifəsi onları bu bəladan xilas etməkdir.

Layihə çərçivəsində həmin uşaqlara yarımillik insulin preparatları və şpris-qələmlər verilmişdir. Bu istiqamətdə işlər Fondun Prezidenti Mehriban xanım Əliyevanın şəxsi nəzarətinə götürülərək davam etdirilir və bunun ənənə halını alaraq 2005-ci ilin may ayında da diabetli uşaqlara növbəti yarım il üçün preparatların verilməsi nəzərdə tutulur.

Azərbaycana rəhbərliyi dövründə elmin, mədəniyyətin, ədəbiyyatın inkişafına misilsiz xidmətlər göstərmiş ümummilli liderimizin ideyalarını rəhbər tutan Heydər Əliyev Fondu bu istiqamətdə də fəaliyyət göstərir, xalqımızın tarixi, milli mədəni irsinin qorunub saxlanılması və təbliği işinə öz töhfəsini verir. Bu işlər təkcə paytaxtda deyil, digər bölgələrdə də görülür.

Fondun dəstəyi ilə Azərbycanın ən qədim şəhərlərindən olan Gəncədə iki layihə həyata keçirilmişdir. Bunlardan birincisi Comərd Qəssab türbəsinin bərpasıdır. VII əsrin yadigarı olan və ziyarətgaha çevrilmiş bu abidə tamamilə dağıdılmışdı. Heydər Əliyev Fondunun dəstəyi və köməyi ilə Comərd Qəssab türbəsi yüksək səviyyədə bərpa edilmiş, 2004-cü il dekabrın 2-də onun açılış mərasimi olmuşdur.

Gəncənin sonuncu xanı Cavad xanın məzarı baxımsızlıqdan pis vəziyyətə düşmüşdü. Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü ildə Gəncəyə səfəri zamanı Cavad xanın məzarının abadlaşdırılması və burada məqbərənin tikilməsi barədə tapşırıq verməsi gəncəlilər tərəfindən böyük razılıq hissi ilə qarşılanmışdır. Heydər Əliyev Fondunun prezidentinin dəstəyi və yaxından köməyi sayəsində Cavad xanın məzarı üstündə milli memarlıq üslubunda gözəl bir məqbərə tikilmiş və 2005-ci il yanvarın 17-də onun təntənəli açılış mərasimi olmuşdur.

Heydər Əliyev Fondunun xalqımızın mədəni irsinin qorunub saxlanması və təbliği sahəsində həyata keçirdiyi tədbirlərdən biri də Azərbaycanın ən məşhur







pedaqoqlarından biri, uşaq ədəbiyyatının görkəmli nümayəndələrindən olan Abdulla Şaiqin ev muzeyinin bərpası ilə bağlıdır. Uzun müddət baxımsız qalan muzey bərbad vəziyyətə düşmüş və onun fəaliyyət göstərməsi mümkün deyildi.

Fond bu ilin aprelindən muzeydə təmir-bərpa işlərinə başlamışdır və yaxın vaxtlarda o, qapılarını yenidən tamaşaçıların üzünə açacaqdır.







Ümummilli liderimiz Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə əlaçı şagirdlər, internat məktəblərində tərbiyə alan, yetim və valideyn himayəsindən məhrum, qaçqın və məcburi köçkün ailələrindən olan uşaqlar üçün Yeni il və Novruz bayramı münasibətilə şənliklərin təşkili ənənəyə çevrilmişdir. Həmin şənliklərdə sevimli Heydər baba ilə görüşlər bu gün də uşaqların yaddaşında unudulmaz xatirələr kimi yaşayır.




Bu ənənəyə sadiq qalan və onu davam etdirən Heydər Əliyev Fondu 2005-ci il yanvarın 2-4-də "Gülüstan" sarayında Yeni il şənlikləri təşkil etmişdir. Fondun prezidenti, Mehriban xanım Əliyeva və qızları şənliklərdə iştirak etmişlər. İncəsənət ustalarının, gənc istedadların ifasında şən mahnılar, oynaq rəqslər, klounların, sehrbazların heyrət doğuran çıxışları, maraqlı müsabiqələr şənliklərə dəvət olunmuş









minlərlə uşağa unudulmaz anlar bəxş etmişdir. Müsabiqələrin qaliblərinə isə Fondun mükafatları və hədiyyələri təqdim olunmuşdur.

Səhiyyə sahəsində Fond tərəfindən həyata keçirilən digər layihə - Azərbaycanda əhalinin sağlamlığı baxımından ən çox narahatlıq doğuran problemlərdən biri olan talassemiyanın yayılmasının qarşısının alınmasıdır. Respublikanın bəzi rayonlarında talassemiya geninin yayılma tezliyi isə xüsusilə təşviş doğurur.

Buna görə də, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ölkəmizdə talassemiyalı xəstələrin sayı, onların vəziyyəti, müalicə imkanları təhlil olunmuş, müvafiq məlumatlar hazırlanmışdır. Talassemiyanın getdikcə daha çox yayılmasını nəzərə alaraq ictimaiyyətin, xarici ölkələrin, beynəlxalq təşkilatların, o cümlədən Beynəlxalq Talassemiya Federasiyasının birgə əməkdaşlıq imkanlarını müzakirə etmək, talassemiyanın müalicəsi və profilaktikası üçün milli proqram hazırlamaq məqsədi ilə 2005-ci ilin fevralında Fond "Talassemiyasız həyat naminə" mövzusunda "dəyirmi masa" keçirmişdir.





"Dəyirmi masa"da ölkəmizdə talassemiya xəstəliyi ilə bağlı vəziyyət barədə ətraflı məlumat verilmiş, onunla səmərəli mübarizənin təşkili üçün səyləri birləşdirməyin zəruriliyi vurğulanmışdır. Geniş müzakirələrin nəticəsi olaraq Fondun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində müasir avadanlıqla təchiz olunmuş Talassemiya mərkəzinin və Mərkəzi qan bankının yaradılması qərara alınmışdır və bu istiqamətdə işlər davam etdirilir. Proqramın daha səmərəli şəkildə həyata keçirilməsi üçün Məsləhət Şurası yaradılmışdır. Həmçinin layihə çərçivəsində Heydər Əliyev Fondunun işçi qrupu fəaliyyət göstərir.

Eyni zamanda, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün donor xidmətinin inkişafı, xəstəliyin qarşısının alınması məqsədi ilə əhalinin maarifləndirilməsi, prenatal diaqnostika üsulu vasitəsilə xəstəliyin proqnozlaşdırılması məsələlərinə də diqqət yetirilir.

Bundan başqa, talassemiya ilə mübarizədə İtaliya, Türkiyə, Yunanıstan və İsraillə əməkdaşlığı genişləndirmək nəzərdə tutulur. Bu əməkdaşlıq çərçivəsində Azərbaycanda yüksək ixtisaslı kadrların hazırlanması üçün mütəxəssislərin mübadiləsinin təşkili istiqamətində tədbirlər görüləcəkdir.



Heydər Əliyev Fondunun genişmiqyaslı və ən əsas işlərindən biri "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramının həyata keçirilməsi ilə bağlı olmuşdur. Bu da təsadüfi deyildir. Hazırda respublikanın şəhər və rayonlarında yetim və valideyn himayəsindən məhrum, əqli, fiziki cəhətdən qüsurlu, müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlar üçün 65 internat məktəbi, uşaq evi və sanatoriyası fəaliyyət göstərir. Lakin bunların yerləşdiyi binalar, mövcud şəraiti, avadanlıqla təchizatı yaxşı deyildir.

"Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı bilavasitə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə hazırlanmışdır. O, Bakıda və ətraf qəsəbələrdə yerləşən 25 uşaq evi və internat məktəblərində olmuş, onların mövcud problemlərini öyrənmişdir. Fondda cari ilin fevralında proqramın reallaşdırılmasına həsr edilmiş "dəyirmi masa" keçirilmişdir. Görüşdə Bakıdakı uşaq evləri və internat məktəblərinin rəhbərləri, əlaqədar nazirliklərin və beynəlxalq təşkilatların nümayəndələri iştirak etmiş, layihənin birinci mərhələsinə yekun vurularaq bu proqramın perspektivinə dair yeni təkliflər müzakirə








edilmişdir. Növbəti mərhələdə respublikanın digər bölgələrindəki uşaq evləri və internat məktəblərində monitorinq keçirilməsi qərara alınmışdır.

Proqrama paytaxtda və ölkəmizin bütün regionlarında yerləşən uşaq evləri və internat məktəblərinin texniki təchizatı, təhsil, səhiyyə xidmətinin yaxşılaşdırılması, ictimaiyyətin bu prosesdə iştirakının fəallaşdırılması sahəsində işlər daxildir. Hazırda uşaq evləri və internat məktəblərinin yetirmələri üçün Heydər Əliyev Fondu yanında Resurs mərkəzi yaradılması istiqamətində işlər görülür. Proqram çərçivəsində ekoloji və sosial xarakterli tədbirlər, festivallar, sərgilər, konsert proqramları, bayram şənliklərinin keçirilməsi, telefonla "Birbaşa xətt" xidmətinin açılması da nəzərdə tutulmuş, bu işlərin həyata keçirilməsinə başlanmışdır. Proqramın həyata





















keçirilməsinin gedişini daha geniş işıqlandırmaq üçün kütləvi informasiya vasitələrində xüsusi rubrikaların açılması, televiziya və radio çarxlarının hazırlanması, internet səhifəsinin yaradılması nəzərdə tutulur.

Bu sahədə danılmaz işləri olan YUNİSEF-in Bakı nümayəndəliyi Fondun həyata keçirdiyi layihənin əhəmiyyətini xüsusi qeyd etmiş, uşaqların hüquqlarına dair bir çox beynəlxalq sənədlərə qoşulan Azərbaycanla bu beynəlxalq təşkilat arasında əməkdaşlıq yaratmağın zəruriliyini vurğulayaraq internat məktəblərində təhsil alan uşaqların problemlərinin həlli sahəsində Azərbaycan nümunəsinin başqa ölkələr üçün də faydalı olduğunu bildirmişdir.

"Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı həyata keçirilərkən məktəblərdə ev şəraitinə maksimum yaxın olan mühit yaradılması mühüm vəzifə kimi qarşıya qoyulmuşdur.

Fondun bir illik fəaliyyəti müddətində sözügedən proqram çərçivəsində paytaxtda yerləşən bir çox uşaq evi və internat məktəblərində əsaslı təmir və yenidənqurma işlərinə başlanmışdır. Təmir işləri ilə yanaşı, əlavə yardımçı binalar da tikilir, təzə avadanlıq və inventarlar verilir. Qeyd etmək lazımdır ki, paytaxtın bir sıra rayonlarında yerləşən internat məktəbləri və uşaq evlərində yararsız vəziyyətə düşmüş korpusların bərpa işləri, ətrafların yaşıllaşdırılması, idman meydançalarının yaradılması və s. uşaqların yaşayış, məişət şəraitinə birbaşa müsbət təsir göstərəcək amillərdəndir. Uşaqların müxtəlif dərnək və məşğələlərdə peşə təhsili almasına, ali və orta ixtisas təhsili müəssisələrində oxumasına şərait yaradılması üçün də tədbirlər görülür. Məhz Heydər Əliyev Fondunun Prezidentinin təşəbbüsündən sonra bu fəaliyyətə müxtəlif iş adamları və şirkətlər də qoşulmağa başlamışdır.









Bayram ənənəsinə sadiq qalaraq Heydər Əliyev Fondu xalqımızın ən aziz bayramı olan Novruz bayramı günlərində də ölkəmizin kiçik vətəndaşlarını, həmçinin himayəsiz qalmış ata və anaları unutmamışdır. Belə ki, Fondun nümayəndələri Bakı və onun ətraf rayonlarında yerləşən uşaq evləri, internat məktəbləri və ahıllar evlərində olmuş, bayram günlərində onlara sevinc payı gətirmişlər.









Bir illik fəaliyyəti çərçivəsində Heydər Əliyev Fondu prioritet məsələlərindən olan, əhalinin sosial problemlərinin həlli məsələlərində də öz imkanları daxilində köməyini əsirgəməmişdir. Məsələn, paytaxtın Qaradağ rayonunun Lökbatan qəsəbəsində su təminatını yaxşılaşdırmaq üçün Fondun maliyyə yardımı ilə yeni su kəməri çəkilmişdir. Uzunluğu 8 kilometr olan kəmərin çəkilməsi həmin ərazidə əhalinin zəruri su təchizatını təmin edəcəkdir.

Gərgin əməyin səmərəli nəticəsi olaraq qısa müddət ərzində Heydər Əliyev Fondunun azərbaycan, rus və ingilis dillərində nəfis tərtibatla işlənib hazırlanmış internet səhifəsi açılmışdır. Saytda ümummilli liderimiz, dünya şöhrətli siyasi xadim, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin həyat və yaradıcılığı, qoyduğu irs haqqında məlumatlar verilmiş, məşhur siyasi xadimin fikirləri toplanmışdır. Zəngin materialları olan Fondun yaranma tarixi, fəaliyyəti, beynəlxalq əməkdaşlığı, mükafatları, fəxri qonaqları, kitabxanası və s. haqqında da ətraflı məlumat burada yerləşdirilmişdir. Belə bir saytın açılması ilə Heydər Əliyev Fondu xaricdə yaşayan həmvətənlərimizlə, beynəlxalq qurumlarla, ictimaiyyətlə, kütləvi informasiya vasitələri ilə əlaqələrin genişləndirilməsi məqsədlərini güdürdü.

Fondun fəaliyyətində diqqəti cəlb edən işlərdən biri də ölkəmizə həsr olunmuş azərbaycan, rus və ingilis dillərində "Azərbaycan" adlı internet səhifəsinin yaradılmasıdır. Burada Azərbaycanın tarixi, coğrafiyası, dövlət quruluşu, regionları, sosial-iqtisadi həyatı, elm, təhsil, mədəniyyət, ədəbiyyat və incəsənəti, idman və turizm sahəsi, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkədə görülmüş nəhəng işlər və hazırda bu yolun Prezident İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilərək həyata keçirilməsi haqqında geniş material yerləşdirilmişdir. Başqa sözlə, bu, informasiyanın həcminə və zənginliyinə görə respublikada analoqu








olmayan, internet texnologiyaları sahəsində yeni bir layihədir. Azərbaycanla maraqlanan hər bir kəs burada ətraflı məlumat əldə edə biləcəkdir. "Azərbaycan" internet səhifəsi ölkəmizin dünyada daha geniş tanıdılması, xarici sərmayələrin, əcnəbi turistlərin cəlb edilməsi baxımından da faydalı olacaqdır.





Heydər Əliyev Fondunun humanitar fəaliyyəti konkret proqramlar və layihələrlə məhdudlaşmır. Respublikanın şəhər və rayonlarından Fonda çoxsaylı müraciətlər, məktublar daxil olur. Onların müəllifləri - uşaqlar, yaşlılar müxtəlif problemlərlə bağlı kömək göstərilməsini xahiş edirlər. Əksər xahişlər ağır xəstəliklərin müalicəsi barədədir.

Ulu öndər Heydər Əliyevin yüksək humanizmini daim rəhbər tutan Fondun prezidenti Mehriban Əliyeva bu xahiş və müraciətlərə diqqətlə, çox həssaslıqla yanaşır, imkan daxilində kömək göstərilməsi üçün tədbirlər görür. Fondun fəaliyyətə başladığı vaxtdan ötən bir il ərzində 500-dək soydaşımıza yardım göstərilmiş, kömək əli uzadılmışdır.

Fondun Prezidenti Mehriban xanım Əliyevanın xüsusi diqqət və qayğısı sayəsində xəstələrin bir çoxu lazımi müalicə alaraq şəfa tapmış və cəmiyyətimizdə normal fəaliyyət göstərmək imkanı qazanmışdır. Mehriban xanımın ünvanına daxil olan minnətdarlıq dolu təşəkkür məktubları bunun əyani sübutudur.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təhsil sahəsində gördüyü mühüm və xeyirxah işlərdən biri də ölkəmizin gələcəyi olan yeniyetmələrin xaricdə təhsil almasına yardım göstərməsidir. Prezident Heydər Əliyev hər zaman təhsili yüksək qiymətləndirmiş və "Azərbaycanın gələcəyinin təhsilli insanların çiyinləri üzərində qurulacağını" dönə-dönə vurğulamışdır. Uzaqgörən insanın ideyalarını rəhbər tutaraq, Heydər Əliyev Fondu bu nəcib işdə əlindən gələni əsirgəmir. Beynəlxalq təhsil təcrübəsini əldə edəcək şəxslər qazandıqları biliklərdən Vətənimizin çiçəklənməsi naminə istifadə edəcəklər.

Heydər Əliyev Fondunun gələcək planları geniş və çoxşaxəlidir və bunların hamısı bir məqsədə - Ulu Öndərin ideyalarının, arzu və istəklərinin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsinə xidmət etməyə, ölkə ictimaiyyətini, habelə xaricdə yaşayan soydaşlarımızı bu işə getdikcə daha geniş cəlb etməyə yönəldilmişdir.

# *Xatirə kitabını vərəqlərkən...*

Azərbaycan paytaxtına səfər edən xarici qonaqlar Heydər Əliyev Fonduna gəlir, xalqımızın dahi oğlunun əfsanəvi ömür yolundan bəhs edən muzeyin ekspozisiyası ilə tanışlıqdan aldıqları unudulmaz təəssüratlarını yığcam şəkildə Xatirə kitabında ifadə edirlər. Müxtəlif ölkələri təmsil edən bu insanlar arasında dövlət və hökumət başçıları, siyasətçilər, yüksək vəzifəli rəsmi şəxslər, dünyada tanınmış elm, mədəniyyət və incəsənət xadimləri, beynəlxalq təşkilatların rəhbərləri vardır. Lakin onların hamısının fikirlərində bir ümumi cəhət vurğulanır: Heydər Əliyev öz ölkəsi və xalqı üçün müstəsna xidmətlər göstərmiş dahi şəxsiyyətdir və onun xatirəsi, ideyaları əbədi yaşamalı, bu sahədə Fondun özü də mühüm rol oynamalıdır.

Xatirə kitabı Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Fondun təqdimat mərasimi günü - 2004-cü il mayın 10-da yazdığı aşağıdakı sözlərlə açılır:



Bu gün Azərbaycanın ümummilli lideri Heydər Əliyevin doğum günüdür. Bu bayram günündə onun adını daşıyan Fondun təqdimat mərasimi keçirilmişdir.

"Heydər Əliyev Fondu" xalqımızın ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin siyasi irsini öyrənəcək, təhlil, tədqiq və təbliğ edəcəkdir. "Heydər Əliyev Fondu" ictimai təşkilatdır, və Azərbaycanın ictimai həyatında mühüm rol oynayacaqdır.

Heydər Əliyevin ideyaları, fikirləri yaşayır. Heydər Əliyev siyasəti, fəlsəfəsi, ideologiyası yaşayır və bundan sonra da əbədi yaşayacaqdır.

Heydər Əliyevin əsəri olan müasir Azərbaycan onun yolu ilə irəliyə, yeni qələbələrə doğru inamla gedəcəkdir.

İlham Heydər oğlu Əliyev

10 may 2004-cü il



"Bu gün Azərbaycanın ümummilli lideri Heydər Əliyevin doğum günüdür. Bu bayram günündə onun adını daşıyan Fondun təqdimat mərasimi keçirilmişdir.

Heydər Əliyev Fondu xalqımızın ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin siyasi irsini öyrənəcək, təhlil, tədqiq və təbliğ edəcəkdir. Heydər Əliyev Fondu ictimai təşkilatdır və Azərbaycanın ictimai həyatında mühüm rol oynayacaqdır.

Heydər Əliyevin ideyaları, fikirləri yaşayır. Heydər Əliyev siyasəti, fəlsəfəsi, ideologiyası yaşayır və bundan sonra da əbədi yaşayacaqdır.

Heydər Əliyevin əsəri olan müasir Azərbaycan onun yolu ilə irəli, yeni qələbələrə doğru inamla gedəcəkdir".

Azərbaycan Respublikasının Prezidenti
İlham Heydər oğlu Əliyev

10 may 2004-cü il

Xatirə kitabını vərəqlədikcə xalqımızın dahi oğlu haqqında yazılmış səmimi sözlərdən qürur hissi keçirir, müxtəlif insanların gözü ilə Heydər Əliyev şəxsiyyətinin əzəmətini bir daha təsəvvür edirsən.

2004-cü ilin iyununda Azərbaycana rəsmi səfəri zamanı Fonda gəlmiş ilk əcnəbi dövlət başçısı olan Yunanıstan Prezidenti Konstantinos Stefanopulos unudulmaz şəxsiyyətlə iki dəfə görüşmək imkanını özü üçün şərəf saydığını vurğulayır, Pakistan rəhbəri Pərviz Müşərrəf ümummilli liderimizi "ölkə tarixində həlledici anda irəli çıxan, millətini inkişaf və rifaha doğru aparan nadir liderlərdən biri" kimi qiymətləndirir.

Heydər Əliyevlə hələ 1974-cü ildə tanış olduğunu xatırladan Moldova Prezidenti Vladimir Voronin ondan çox şey öyrəndiyini bildirir, "azərbaycanlıların öz Prezidentinə, ölkənin suverenliyi və müstəqilliyinin müdafiəçisinə dərin hörmət hisslərini qoruyub saxlamasının xoş təsir bağışladığını" vurğulayır.

"Öz enerjisini və gücünü ölkəsinə, regionun sabitliyinə və Avropa standartlarının bərqərar olmasına sərf edən" ümummilli lider Heydər Əliyevə minnətdarlığını bildirən Bolqarıstan Prezidenti Georgiy Pırvanov onun işıqlı xatirəsi önündə baş əyir.

Heydər Əliyev Fondunun muzeyi ilə maraqla tanış olan Belarusiyanın Baş naziri Sergey Sidorski " Fondun fəaliyyətinin Azərbaycan cəmiyyətinin gələcək inkişafına yardım edəcəyinə" əminliyini bildirir.

Qonşu Gürcüstanın mərhum Baş naziri Zurab Jvaniyanın ürək sözləri də səmimiliyi ilə seçilir: "... Məhz onun səyləri nəticəsində Gürcüstan işıqlı gələcəyə olan inamını qoruyub saxlayır və Azərbaycanla birgə sabaha doğru addımlayır... Bu dahi şəxsiyyətlə keçirdiyim hər bir görüşdən qürur duyuram".

Ulu öndərin ən yaxın dostlarından olan məşhur həmyerlilərimizin: dünya şöhrətli musiqiçi Mstislav Rostropoviçin və keçmiş SSRİ-nin neft sənayesinin görkəmli nümayəndəsi akademik Nikolay Baybakovun qeydləri diqqəti cəlb edir.

Özünü "sadiq bakılı" adlandıran maestro Fondla tanışlıqdan sonra ürək sözlərini belə ifadə etmişdir: "Mən böyük sevinc hissləri keçirdim: mənə elə gəldi ki, böyük dostum Heydər Əliyevin mənzilində olmuşam. Çox gözəl seçilmiş şəkillər içində sanki unudulmaz dostumun bütün həyatına nəzər saldım. Heydər Əliyev Fondunu yaradanların hamısına minnətdarlığımı bildirirəm".

Dostu və həmkarı Heydər Əliyevin xatirəsinə yaradılmış Fonda dərin minnətdarlığını ifadə edən akademik Nikolay Baybakov yazır: "...Heydər Əliyev Azərbaycanın inkişafı və vətəndaşlarının həyat səviyyəsinin yüksəldilməsi üçün çox-çox işlər görmüş dahi şəxsiyyətdir. Heydər Əliyevin əbədi xatirəsi əsrlər boyu yaddaşlarda yaşayacaqdır".





"Bütün keçmiş İttifaq xalqları adından, xüsusilə onun yanında olanların adından Azərbaycanın böyük oğlu Heydər Əlirza oğlu Əliyevin işıqlı xatirəsini yad edən" Rusiya Federasiyası Moska şəhərinin meri Yuriy Lujkov onu nümunə götürdüyü insanlardan biri adlandırır.

"Azərbaycanın ümummilli lideri, görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyevin xatirəsini yaşatdığına görə Fonda dərin minnətdarlığını" bildirən Rusiyanın Sankt-Peterburq şəhərinin qubernatoru Valentina Matviyenko "Fondun humanitar aksiyalarının, xüsusilə də əlil uşaqlara yardım göstərilməsinin böyük hörmət və ehtiram doğurduğunu" vurğulayır.

Məşhur gürcü kinorejissoru, keçmiş SSRİ-nin xalq artisti Rezo Çxeidze Fondla tanışlıqdan aldığı təəssüratını belə bölüşür: "Bu gün mənim üçün əlamətdar gündür. Mən Azərbaycan xalqının böyük oğlunun keçdiyi yolu - onu adi insandan Ümummilli qəhrəmana çevirən yolu gördüm. Heydər Əliyev öz xalqının oğludur! Heydər Əliyev bizim planetin oğludur. O, mənim vətənimi sevirdi. Gürcüstan daim böyük ehtiramla Azərbaycana baxmış və bir çox şeylərdə Azərbaycanın liderinə bənzəmək, onun kimi olmaq istəmişdir. Qoy Heydər Əliyevin şöhrəti əbədi olsun!"

Gürcüstanın hazırkı Baş naziri Zurab Noğaideli isə "Heydər Əliyevin təkcə Azərbaycanın deyil, həm də Gürcüstanın tarixində dərin iz qoyduğunu" vurğulayaraq yazır ki, "Qafqazda hörmətli olmaq istəyən hər bir kəs bu Fondu ziyarət etməlidir".

Rusiya Dövlət dumasında "Rodina" fraksiyasının rəhbəri Dmitriy Roqozinin cəmi bircə cümlədən ibarət sözlərində necə böyük, qəlbin dərinliklərindən gələn səmimi hisslər vardır: "Heydər Əliyevə oğul məhəbbəti ilə və Azərbaycan xalqına dərin ehtiramla".

Biz burada Xatirə kitabındakı yazıların bir qismində səslənən fikirləri xatırlatdıq. Lakin illər ötəcək, Heydər Əliyev Fondunda bir yox, neçə-neçə yeni Xatirə kitabları açılacaq, bunlarda Azərbaycanın əbədiyaşar dahi oğlu haqqında onun adına, şəxsiyyətinə, Vətən, xalq qarşısında xidmətlərinə layiq xoş sözlər yazılacaq və bunlar gələcək nəsillər üçün yadigar qalacaqdır.

Εἶχα τὴν εὐκαιρία νὰ συναντήσω τὸν ἀείμνηστο Πρόεδρο
Χαϊντὰρ Ἀλίεφ δύο φορές. Σήμερα μὲ τὴν ἐπίσκεψη στὸ
θαυμάσιο κτίριο τοῦ Μουσείου ἐνίσχυσα τὶς ἀναμνήσεις μου
καὶ ἀναπόλησα τὶς εὐχάριστες ἀναμνήσεις

21 Ἰουνίου 2004

Κ. Στεφανόπουλος

Πρόεδρος τῆς Ἑλληνικῆς Δημοκρατίας







Mən bu unudulmaz şəxsiyyətlə iki dəfə görüşmək şərəfinə nail olmuşam. Bu gün bu muzey binasını ziyarət edərkən mənim xoş xatirələrimi daha da zənginləşdirən hisslər keçirdim.

Yunanıstanın Prezidenti
Konstantinos Stefanopulus

21 iyun 2004-cü il

Великому
сыну
Азербайджана
Гейдару
Алиевичу Алиеву
навсегда вели-
кая память от
всех народов
бывшего Союза
и особенно от тех,
кто был с ним
рядом!

05 07 04



Bütün keçmiş İttifaq xalqları adından, xüsusilə onun yanında olanların adından Azərbaycanın böyük oğlu Heydər Əlirza oğlu Əliyevin işıqlı xatirəsini yad edirəm.

Rusiya Federasiyası Moskva şəhərinin meri
Yuriy Lujkov

5 iyul 2004-cü il

Late President Heydar Aliyev belonged to a unique group of leaders who came to the fore at a decisive moment in the history of their country and led their Nations to the path of progress and prosperity.

I personally remember President Heydar as a wise and visionary statesman. I am sure the standards he has set will be carried forward by the future generations of Azerbaijan.

9 July 2004







Mərhum Prezident Heydər Əliyev ölkə tarixində həlledici anda irəli çıxan, öz millətini inkişaf və rifaha doğru aparan nadir liderlərdəndir.
Mən şəxsən Prezident Heydər Əliyevi müdrik və uzaqgörən dövlət xadimi kimi xatırlayıram.
Mən əminəm ki, onun təməlini qoyduğu standartları Azərbaycanın gələcək nəsilləri davam etdirəcək.

Pakistan Respublikasının Prezidenti
Pərviz Müşərrəf

9 iyul 2004-cü il

بسم الله الرحمن الرحیم

هنگام دیدار رسمی از جمهوری آذربایجان و در طول اقامت در شهر باکو در تاریخ ۱۳۸۳/۵/۱۵ تا ۱۳۸۳/۵/۱۷ موفق به دیدار از بنیاد رئیس جمهور فقید آذربایجان گردیدم.

دیدار از این بنیاد همراه با یادآوری خاطرات سالهای تلاش و خدمت و مدیریت جناب آقای حیدر علی‌اف در مسیر استقلال و شکوفایی، ثبات و امنیت جمهوری آذربایجان بود.

بدون تردید در تاریخ روابط دو کشور دوست، مسلمان و همسایه: جمهوری اسلامی ایران و جمهوری آذربایجان، نقش شادروان حیدر علی‌اف زنده خواهد ماند. و این دیدار فرصتی را فراهم کرد تا به عنوان رئیس جمهوری اسلامی ایران و نماینده ملت با فرهنگ و دارای تمدن ایران از تلاش‌ها و خدمات ایشان قدردانی و سپاس خود را ابراز نمایم.

سید محمد خاتمی

۱۳۸۳/۵/۱۶







Rəhimli və rəhman olan Allahın adı ilə!

Azərbaycan Respublikasına rəsmi səfərim zamanı (05-07.08.2004-cü il) Bakıda olduğum müddət ərzində Azərbaycan Respublikasının mərhum Prezidenti Heydər Əliyevin Fondu ilə tanışlığa nail oldum.

Qeyd olunan fondla tanışlıq bizi Prezident Heydər Əliyevin Azərbaycan Respublikasının müstəqilliyi, çiçəklənməsi, təhlükəsizliyi və sabitliyi yolunda çalışdığı illərə qaytararaq bu illərdən qalan xatirələri zehnimizdə bir daha canlandırdı.

Şübhəsiz ki, dost, qardaş və müsəlman ölkə olan İran İslam Respublikası ilə Azərbaycan Respublikasının münasibətləri tarixində mərhum Heydər Əliyevin böyük rolu daima yaşayacaq.

Qeyd etmək istərdim ki, yüksək mədəniyyətə, qədim tarixə malik olan İran xalqının nümayəndəsi və İran İslam Respublikasının Prezidenti kimi mənə bu görüşdə Heydər Əliyevin səylərini və xidmətlərini yüksək qiymətləndirərək minnətdarlığımı bildirmək üçün münasib fürsət yarandı.

İran İslam Respublikasının Prezidenti
Seyid Məhəmməd Xatəmi

6 avqust 2004-cü il

С сыновьей любовью
к Гейдару Алиевичу
Алиеву и глубоким
уважением к народу
Азербайджана!
Дмитрий Рогозин,
руководитель фракции
«Родина» в Государ-
ственной Думе России

7.08.04





Heydər Əliyevə oğul məhəbbəti ilə və Azərbaycan xalqına dərin ehtiramla!

Rusiya Dövlət Dumasında
"Rodina" fraksiyasının rəhbəri
Dmitriy Roqozin

7 avqust 2004-cü il

Я хочу выразить глубокую благодарность организаторам этого прекрасного фонда о моем друге и соратнике Гейдаре Алиевиче.
Гейдар Алиевич - это гениальный человек, сделавший многое для развития Азербайджана и подъема жизненного уровня его граждан.
Светлая память о Гейдаре Алиевиче будет жить в веках.

Академик Байбаков /Н.К.Байбаков/

14.IX 04г





Mənim dostum və həmkarım Heydər Əliyevə həsr olunmuş fondun təşkilatçılarına dərin minnətdarlığımı bildirmək istəyirəm.
Heydər Əliyev - Azərbaycanın inkişafı və vətəndaşlarının yaşayış səviyyəsinin artması üçün çox-çox işlər görmüş dahi bir şəxsiyyətdir.
Heydər Əliyevin əbədi xatirəsi əsrlər boyu yaddaşlarda yaşayacaqdır.

Akademik Nikolay Baybakov

14 sentyabr 2004-cü il

Я испытал большую радость: мне показалось, что я побывал в новой квартире моего Великого Друга – Гейдара Алиевича. В замечательно подобранных фотографиях я как-бы увидел всю жизнь моего незабвенного Друга. Спасибо всем, кто организовал фонд Президента Гейдара Алиева.

Преданный Вам Бакинец

18/IX-2004







Mən böyük sevinc hissləri keçirdim: mənə elə gəldi ki, mən Böyük Dostum - Heydər Əliyevin yeni mənzilində olmuşam. Çox gözəl seçilmiş şəkillər içində mən sanki unudulmaz dostumun bütün həyatına nəzər saldım. Prezident Heydər Əliyev Fondunu yaradanların hamısına minnətdarlığımı bildirirəm.

Sizə sadiq Bakılı
Mstislav Rostropoviç

18 sentyabr 2004-cü il

Преклоняю голову перед памятью великого лидера Азербайджана - Гейдара Алиевича Алиева.

Грузия признательна Гейдару Алиевичу за его борьбу, его волю, его видение - без этого Грузия не имела бы тех светлых перспектив, которые сегодня мы реализуем совместно с Азербайджаном.

Гейдар Алиев основал могучее и преуспевающее Азербайджанское Государство, открыл двери нового развития всему региону.

Горжусь каждой встречей с этим Великим Лидером.

С искренним восхищением

Зураб Жвания

20. 09. 2004 г.







Azərbaycanın Böyük Lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsi qarşısında baş əyirəm.

Gürcüstan xalqı Heydər Əliyevin mübarizəsinə, iradəsinə, uzaqgörənliyinə öz minnətdarlığını bildirir. Onsuz Gürcüstan bu gün Azərbaycanla birgə həyata keçirtdiyi parlaq perspektivlərə nail ola bilməzdi.

Heydər Əliyev qüdrətli və uğurlar qazanan Azərbaycan Respublikasının təməlini qoymuş, gələcək inkişaf üçün ölkənin qapılarını bütün regiona açmışdır.

Bu dahi şəxsiyyətlə keçirdiyim hər bir görüşdən qürur duyuram.

Səmimi heyrətlə,

Zurab Jvaniya

20 sentyabr 2004-cü il

Поклон пред светлата памет на общонационалния лидер на Азербайджан Гейдар Алиев!

С признателност към политика и държавника, дал много сили и енергия за страната си, за стабилизирането на региона и за утвърждаване на европейската му перспектива!

Вярвам, че идеите и делото на президента Гейдар Алиев ще имат достойно продължение в името на доброто бъдеще на приятелския народ на Азербайджан!

8 окт. 2004 г.

Георги Първанов







Ümummilli lider Heydər Əliyevin işıqlı xatirəsi önündə baş əyirəm!
Öz enerji və gücünü ölkəsinə, regionun stabilliyinə və Avropa standartlarının bərqərar olmasına həsr edən siyasətçi və dövlət xadiminə minnətdarlıq bildirirəm!
Əminəm ki, Prezident Heydər Əliyevin işi və ideyaları dost Azərbaycan xalqının işıqlı gələcəyi naminə layiqli davamını tapacaq!

Bolqarıstan Respublikasının Prezidenti
Qeorgi Prvanov

8 oktyabr 2004-cü il

阿利耶夫先生是国际知名政治家，是中国人民的老朋友，为发展长期、稳定的中阿友好关系做出了重要贡献。我向阿利耶夫先生表示敬意并致以深切的怀念。

中共代表团 刘云山

二〇〇四年十月八日





Heydər Əliyev Çin xalqının böyük dostu, Çin və Azərbaycan arasında uzunmüddətli və möhkəm dostluq münasibətlərinin yaranmasında böyük əməyi olmuş dünyada tanınan siyasi xadimlərdən biridir.
Heydər Əliyevə öz ehtiramımı bildirirəm.

ÇXR MK-nın sədri
Lyu Yuan Şan

8 oktyabr 2004-cü il

Nous sommes impressionnés par la Fondation du Grand Président ALIEV et de son oeuvre de construction de la République Azeri.
Avec nos souhaits de succès au peuple et aussi au football, sport rassembleur par excellence.

Avec respect et compliments

Joseph S. Blatter
Président FIFA

ŞENES ERZIK
1 VICE PRÉSIDENT
UEFA

PLATINI

12/OCT/2004







Dahi Prezident Heydər Əliyev adına Fond və onun Azərbaycan Respublikasının quruculuğunda gördüyü işlər bizdə müsbət təssüratlar doğurdu.
Azərbaycan xalqına, o cümlədən futboluna və ümumilikdə idmanına müvəffəqiyyətlər arzu edirəm.
Hörmətlə və xoş arzularla,

Josef Blatmann - FİFA-nın Prezidenti
Şenez Erzik - UEFA-nın Vitse Prezidenti
Mişel Platini

12 oktyabr 2004-cü il

Очень рад, что у азербайджанского народа в своей истории был и остается такой Лидер!

Мне посчастливилось знать Гейдара Алиевича с октября 1974 года. И очень многое у него перенял.

Сегодня импонируют те глубокие чувства уважения, которые сохраняют азербайджанцы к Гейдару Алиевичу — своему Президенту и защитнику суверенитета и независимости страны.

Верю, что нынешнее руководство Азербайджана достойно и надёжно продолжит дело Президента Гейдара Алиева!

С уважением Президент Республики Молдова

27 октября 2004 г.









Çox şadam ki, Azərbaycan xalqının tarixində belə bir lider olub və qalır!
1974-cü ildə mənə Heydər Əliyevlə tanış olmaq nəsib olmuşdur. Və ondan çox şeylər öyrənmişəm.
Heydər Əliyevə - öz Prezidentlərinə, ölkənin suverenliyinin və müstəqilliyinin müdafiəçisinə azərbaycanlıların qoruyaraq saxladıqları dərin hörmət hissləri bu gün mənə xoş təsir bağışlayır.
İnanıram ki, Azərbaycanın indiki rəhbərliyi Prezident Heydər Əliyevin işini layiqincə və inamla davam etdirəcək.
Hörmətlə,

Moldova Respublikasının Prezidenti
Vladimir Voronin

27 oktyabr 2004-cü il

С большим интересом ознакомился с богатой экспозицией Фонда, которая рассказывает о колоссальном вкладе общенационального лидера Азербайджанской Республики Гейдара Алиева в становлении государственности родной страны.

Уверен, что деятельность Фонда будет способствовать дальнейшему развитию азербайджанского общества.

05.11.2004. С. Сидорский





Doğma ölkəsinin dövlətçiliyinin qurulmasında Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin gördüyü mühüm işlərdən bəhs edən Fondun zəngin ekspozisiyası ilə böyük maraqla tanış oldum.
Əminəm ki, Fondun fəaliyyəti Azərbaycan cəmiyyətinin gələcək inkişafına yardım edəcəkdir.

Belarusiyanın Baş Naziri
Sergey Sidorskiy

5 noyabr 2004-cü il

Огромное спасибо Фонду
за сохранение памяти
общенационального Лидера Азербайд-
жана, выдающегося политического
и государственного деятеля
Г. А. Алиева. Гуманитарные
акции Фонда вызывают огром-
ное уважение и признание,
особенно оказание помощи
детям-инвалидам.

Желаю Фонду больших
успехов!

Губернатор
Санкт-Петербурга

В. Матв /В. Матвиенко/



Azərbaycanın Ümummilli Lideri, görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyevin xatirəsini yaşatdığına və qoruduğuna görə Fonda öz dərin minnətdarlığımı bildirirəm. Fondun humanitar aksiyaları, xüsusilə də əlil uşaqlara yardım göstərməsi böyük hörmət və ehtiram doğurur.
Fonda böyük müvəffəqiyyətlər arzulayıram!

Rusiya Federasiyası Sankt-Peterburqun Qubernatoru
Valentina Matviyenko

11 noyabr 2004-cü il

Для всех нас, участников „Дней ИТАР-ТАСС в Азербайджане, большая честь посетить это замечательное место - Фонд Гейдара Алиевича Алиева.
Еще одна встреча здесь, в этом Фонде, с великим человеком, который посвятил всю свою жизнь служению своему народу.
Желаем успеха всем, кто столь бережно хранит память о Президенте Г.А. Алиеве.

По поручению делегации - депутатов Госдумы РФ, Совета Федерации РФ, министров РФ, писателей, журналистов, дипломатов

[signature]
генеральный директор ИТАР-ТАСС





Bu gözəl yeri - Heydər Əliyev Fondunu ziyarət etmək "Azərbaycanda İTAR-TASS günləri"nin bütün iştirakçıları üçün böyük şərəfdir.
Bütün ömrünü öz xalqına xidmətə həsr etmiş böyük insanla bu Fondda bir daha görüşdük.
Heydər Əliyevin xatirəsini qayğı ilə yad edənlərin hamısına uğurlar arzulayırıq.

Nümayəndə heyətinin - RF-nın Dövlət Dumasının və Federasiya Şurasının deputatlarının, RF-nın nazirlərinin, yazıçıların, jurnalistlərin və diplomatların tapşırığı ilə
İTAR-TASS-ın Baş direktoru
Vitaliy İqnatenko

22 yanvar 2005-ci il

Сегодня для меня особый день.
Я увидел тот путь который сделал Великого Сына Азербайджанского народа — от простого человека Общенациональным героем. Гейдар Алиев сын своего народа, — Гейдар Алиев сын Нашей планеты! Он любил Мою Родину. Грузия всегда с большим уважением смотрел, старался во много подражать Азербайджанского Лидера. Вечная Слава Г. Алиеву!

Резо Чхеидзе
Народный Артист СССР
Кинорежиссер.



Bu gün mənim üçün əlamətdar bir gündür. Mən Azərbaycan xalqının böyük oğlunun keçdiyi yolu - onu adi insandan Ümummilli qəhramana çevirən yolu gördüm. Heydər Əliyev öz xalqının oğludur! Heydər Əliyev Bizim Planetin oğludur! O mənim vətənimi sevirdi. Gürcüstan daima böyük ehtiramla Azərbaycana baxmış və çox şeylərdə Azərbaycanın liderinə bənzəmək, onun kimi olmaq istəmişdir. Qoy Heydər Əliyevin şöhrəti əbədi olsun!

SSRİ xalq artisti, kinorejissor
Rezo Çxeidze

4 mart 2005-ci il

Гн Гейдар Алиев оставил глубокий след, не только в истории Азербайджана, но и Грузии!

Этот музей должен посетить все, кто хочет быть уважаемым на Кавказе

Спасибо.

Зураб Ногайдели







Heydər Əliyev cənabları təkcə Azərbaycanın deyil, həm də Gürcüstanın tarixində dərin iz qoymuşdur!
Qafqazda hörmətli olmaq istəyən hər bir kəs bu muzeyi ziyarət etməlidir.
Sağolun,

Gürcüstan Respublikasının baş naziri
Zurab Noqaydeli

4 mart 2005-ci il

Прошел по залам памяти Гейдара
Алиевича с волнением, грустью
и любовью. Вспомнил встречи
и беседы с моим Устазом.
Биография Гейдара Алиева
это учебник истории Личности
и Страны. Учебник, который
воспитывает граждан нового
Азербайджана, основы которого
заложены Сыном Народа и
Отцом государства Гейдаром
Алиевым. Спасибо работни-
кам Фонда и его руководителю
Мехрибан-ханум за прекрас-
ные минуты пережитые
мною от встречи с образом
Учителя. Олжас Сулейменов
19.04.05.





Heydər Əliyevin yaddaş zallarını həyəcan, kədər və sevgi ilə gəzdim. Ustadım ilə keçirdiyim görüş və söhbətləri yada saldım. Heydər Əliyevin tərcümeyi-halı şəxsiyyətin və ölkənin tarix dərsliyidir. Bu dərslik xalqın oğlu və dövlətin atası tərəfindən özülü qoyulan Yeni Azərbaycanın vətəndaşlarını tərbiyə edəcəkdir. Heydər Əliyev Fondunun işçiləri və Fondun rəhbəri Mehriban xanıma müəllimimin surəti ilə görüşdən yaşadığım gözəl dəqiqələrə görə təşəkkür edirəm.

Qazaxstanın xalq yazıçısı
Oljas Suleymenov

19 aprel 2005-ci il

**HEYDƏR ƏLİYEV FONDU**

Azərbaycan Respublikası, Bakı şəh., Niyazi küç., 5
Tel.: (994 12) 435 11 88; Faks: (994 12) 497 88 88
office@heydar-aliyev-foundation.org
www.heydar-aliyev-foundation.org

